# AZƏRBAYCANIN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: BUĞDANIN TİMSALINDA (2015-2020-CI İLLƏR)

## ARAŞDIRMA SƏNƏDİ



Demokratik Təşəbbüslər İnstitutu
IDI
Institute for Democratic Initiatives

2021

# Azərbaycanın ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi: buğdanın timsalında (2015-2020-ci illər)

**Müəllif: Tural Bədəlov**

**Ekspert:Rövşən Ağayev / Azər Mehtiyev**

**Bakı 2021**

## Mündəricat

Xülasə .......................................................................................................................... 4

Giriş ............................................................................................................................... 5

Ərzaq təhlükəsizliyi: nəzəri-metodoloji məsələlər ........................................................ 7

Azərbaycanın buğda ilə özünü təminatı: mövcud vəziyyət və problemlər .................................. 11

Azərbaycanda buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi üçün siyasət tədbirləri və onların nəticləri ........................................................................................................ 17

Tədqiqatın əsas nəticələri və tövsiyyələr ...................................................................... 25

Ədəbiyyat siyahısı ........................................................................................................ 27

# Xülasə

Bu sənəd Azərbaycanın ərzaq təhlükəsizliyi ilə bağlı problemlərinin araşdırılmasına həsr olunub.

Tədqiqatın ilk bölümündə "ərzaq təhlükəsizliyi" anlayışına nəzəri yanaşma, bu problemin həlli ilə bağlı metodoloji məsələlər araşdırılıb. Dünyada aqrar sektorun inkişafı sahəsində ixtisaslaşmış BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) ərzaq təhlükəsizliyilə bağlı meyarları, prinsip və standartları barədə ətraflı məlumatlar təqdim edilib.

Təşkilatın yanaşması odur ki, ərzaq təhlükəsizliyi üçün zəruri həcmdə qidanın olması mühüm şərt olsa da, yeganə şərt deyil. İnsanların fiziki əlçatanlığı ilə yanaşı, iqtisadi əlaçatanlıq da təmin edildiyi halda ərzaq təhlükəsizliyinə tam nail olmaq mümkündür. İqtisadi əlçatanlıq isə insanların zəruri qidalanma üçün yetərli səviyyədə maddi imkana malik olmasını ehtiva edir.

Araşdırmanın 2-ci bölməsində Azərbaycanın buğda ilə təminatının mövcud vəziyyəti statistik olaraq təhlil edilir.

Rəsmi məlumatların araşdırılması zamanı məlum olub ki, son 10 ildən artıq müddətdə Azərbaycanın buğda istehsalı 60%-dən çox artsa da, ölkənin buğda idxalından yüksək asılılığı (təxminən 50%) hələ də qalır. Bu vəziyyət istehsal həcminin genişlənməsinə adekvat olaraq tələbatın da yüksək sürətlə artımına görə baş verib.

Tədqiqatın sonuncu bölməsində son 15 ilə yaxın dövrdə buğda istehsalının təşviqi və bu sahədə hüquqi tənzimləmə ilə bağlı atılan addımlar, qəbul edilən strategiya, proqram və mexanizmlər barədə ətraflı məlumat verilir.

Sonda tədiqatın əsas nəticələri və buğda idxalından asılılığın azaldılması məqsədilə təkliflər təqdim edilib.

Buğda istehsalını stimullaşdırılması üçün 2015-2020-ci illər ərzində müxtəlif tədbirlərin görülməsi, normativ-hüquqi aktların qəbulunu - ölkə prezidentinin Sərəncamlarını, Strateji yol xəritələrini, Dövlət proqramlarını, yaradılmış - Qida Təhlükəsizliyi Agentliyini, Aqrolizinq ASC, Aqrar Kredit və İnkişaf Agentliyini, həmçinin dövlət büdcəsi xərclərində kənd təsərrüfatına ayrılan vəsaiti nəzərə alaraq Azərbaycanın buğda timsalında ərzaq təhlükəsizliyinə baxdıqda görürük ki, buğda istehsalında artıma nail olunmuşdur. Lakin bu artım əsasən əkin sahələrinin genişləndirilməsi hesabına olub. Buğda ixdalından asılılıq isə hələ də yüksək (50% civarında) səviyyədə qalır və əsas problemlərdən biridir.

# Giriş

Ərzaq təhlükəsizliyi istənilən ölkənin milli təhlükəsizliyinin əsas elementlərindın biri, iqtisadi və siyasi müstəqilliyin əsas faktoru hesab edilir. Bu səbəbdən ərzaq təhlükəsizliyi bütün ölkələrin əsas pioritet məsələlərindən biridir.
İqtisadi cəhətdən nəzərə aldıqda ölkənin idxaldan asılı olması iqtisadiyyatı şok və böhranlara həssas edir, həmçinin ölkədən davamlı olaraq valyuta çıxışına və valyuta ehtiyatlarının azalmasına səbəb olur. Siyasi və milli təhlükəsizlik baxımından isə bir ölkə ərzaq təhüləsizliyini təmin edə bilmədikdə, digər ölkələrdən(xüsusən qonşu) asılı vəziyyətdə olur, ixracatçı ölkənin idxalatçı ölkəyə təsir rıçaqları, sanksiya tətbiq etmək imkanları geniş olur. Son dövrlər baş verən ticari müharibələr, ölkələrin müxtəlif məhsullara tətbiq etdikləri ixrac və idxal qadağaları və ya kvotaları qeyd edilənlərin bariz nümunəsi sayıla bilər.

Dövlətlər ərzaq təhlükəsizliyini yetərli səviyyədə təmin edə bilmədikdə ölkə daxilində əhalinin sosial-iqtisadi rifahi pisləşir və iqtisadi böhran siyasi narazılıqların artmasına, bir çox hallarda hakimiyyət dəyişikliklərinə səbəb olur.

Zaman-zaman dünyada baş verən müxtəlif müxtəlif şoklar, böhranlar, (1 və 2-ci dünya müharibələri, 1918-ci il İspan qripi, 1929-cu il İqtisadi böhranı, 2008-ci il Maliyyə böhranı, 2020-ci il koronavirus pandemiyası və.s) təbii fəlakətlər, iqlim hadisələri, mövzunun əhəmiyyətini və aktuallığını artırır. Bütün bu böhranların əsas ortaq cəhədlərindən biri insanların ərzaqla təmin olma səviyyəsinə təsir göstərməsi, müəyyən çətinliklər yaratmasıdır.

Azərbaycan da öz növbəsində ərzaq təhlükəsizliyinin strateji əhəmiyyətini, siyasi və iqtisadi azadlığın vacib faktoru olduğunun fərqində olaraq addımlar atmış və atmağa da davam edir.

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 2 mart tarixli 640 nömrəli Sərəncamı ilə 2001–2010-cu illəri əhatə edən “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”, 2008-ci il 25 avqust tarixli 3004 nömrəli Sərəncamı ilə “2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” təsdiqlənib və həyata keçirilib. Bu sənəldərin reallaşdırılması ərzaq təhlükəsizliyi məsələsinə Azərbaycan hökumətinin verdiyi önəmi də göstərir.

Lakin bütün təşəbbüslərə və səylərə baxmayaraq Azərbaycan dövlət müstəqilliyi qazandığı 30 ildə bir sıra məhsulların, o cümlədən buğdanın yüksək idxal asılığından xilas ola bilməyib. Xüsusilə də buğda istehsalının artırılması ilə bağlı genişmiqyaslı təşviq tədbirləri də həyata keçirilib. Bu sahədə nəzərdə tutulan hədəfə nail olunmamasının səbəbləri təqdim edilən təqdiqatda araşdırılıb və əsas səbəblərini aşkarlamağa səy göstərilib.

# 1. Ərzaq təhlükəsizliyi: nəzəri-metodoloji məsələlər

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının verdiyi tərifə əsasən ərzaq təhlükəsizliyi elə bir şəraitin mövcudluğudur ki, həmin şəraitdə ölkənin hər bir vətəndaşı tərəfindən aktiv və təhlükəsiz həyat üçün hər an yetərli, təhlükəsiz və vitaminli ərzaq məhsullarına sosial, fiziki və iqtisadi çıxış təmin edilir[1].
Həmçinin ərzaqın həcmi, miqdarı və çeşidləri, keyfiyyəti fərdin sosial inkişaf və normal fiziki fəaliyyəti üçün kifayət qədər və zəruri həcmdə olmalıdır.[2]

FAO ekspertləri ərzaq təhlükəsizliyilə bağlı dövlət siyasətinin işlənməsi, eləcə də araşdırmaların aparılması zamanı bir sıra vacib məqamları nəzərə almağı tövsiyyə edir[3].

**Əvvəla**, ərzaq təhlükəsizliyi ölkənin bütün növ ərzaq məhsulları ilə özünü tam təmin etməsi demək deyil. Çin və ABŞ-dan tutmuş Rusiya və Hindistana qədər istənilən ölkə öz daxili resursları, istehsalı faktorları (əmək, torpaq, kapital) hesabına təkbaşına özlərini tam ərzaqla təmin etmələri praktiki olaraq mümkün deyil. Əgər belə imkan olsa idi, beynəlxalq ticarət və qloballaşma da hazırkı səviyyədə geniş miqyas almazdı.

**İkincisi,** əgər ixtiyari bir ölkənin müəyyən məhsullar üzrə müqayisəli bir üstünlüyü varsa, bu halda daxili tələbatı ödəmək və ixrac üçün ərzaq istehsal edilə bilər. Məsələn, Sinqapur kimi ərazisi çox kiçik olan ölkə ərazisini əkin sahələrinə çevirə bilməz və ya Braziliya ekvatorial iqlim qurşağı olan Amazon meşələrində buğda yetişdirə bilməz. Mütləq ki, müqayisəli üstünlüyü olmalıdır ki, hər hansısa məhsulun istehsalına başlasın

**Üçüncüsü,** ölkələrin əhalinin ərzağa olan tələbatını ödəmək üçün idxal potensialı olmalıdır. Ölkənin istehsal imkanları, müqayisəli üstünlüyü olmasa belə, kifayət valyuta ehtiyatları, gəlirləri olmalıdır ki, əhalinin tələbatını ödəyəcək ərzağı idxal ilə təmin edə bilsin.

**Nəhayət,** əhalinin təhlükəsiz ərzağa fiziki və iqtisadi əlçatanlığı təmin edilməlidirlər. Ölkədə ərzaq təminatının olması, əhalinin həmin ərzağa əlinin çatan olması demək deyil. İnsanların fiziki sağlamlıqları, məşğulluğu, gəlirləri, təhsilləri və.s olmalıdır ki, onlar ərzaqdan yararlana bilsinlər.

[1] http://www.fao.org/3/MR173RU/mr173ru.pdf
[2] https://atm.gov.az/pdf/magazine/3.pdf E.H. Əkbərov - Ərzaq təhlükəsizliyinin milli təhlükəsizlik sistemində yeri .
[3] http://www.fao.org/fileadmin/templates/faoitaly/documents/pdf/pdf_Food_Security_Cocept_Note.pdf

FAO ərzaq təhlükəsizliyinin 4 mühüm elementi bir-birindən fərqləndirir və həmin elementlərə daxildir:

***i) Ərzağın mövcudluğu.*** Ərzağın mövcudluğuna ərzaq məhsullarının yerli istehsalı, idxalı, paylanması və ticarəti daxildir. Göründüyü kimi ərzaq təhlükəsizliyində ərzağın yerli istehsalı yox, ərzağın yetərli miqdarda ölkədə mövcudluğu əsas götürülür, hansı ki, bu mövcudluq yerli istehsal və ya idxal hesabına təmin edilə bilər. Burada mühüm olan yetərli və insanların yaşaması üçün vacib olan təhlükəsiz ərzaq məhsulların ölkədə mövcudluğudur. Bu elementə xarici ticarət birbaşa təsir edir. Belə ki, liberal xarici ticarət şəraitində ölkə çatışmayan ərzaq məhsulların idxal edir, artıq ərzaq məhsulların isə ixrac edir, beləliklə ərzaq balansı təmin edilmiş olur. Bu halda ölkənin idxal rejimi vacib ərzaq məhsullarının qiymətinə, həcminə, keyfiyyət səviyyəsinə ciddi təsir edir. Yəni, idxal rejimi nə qədər liberal olsa, onda daha çox ərzaq məhsulları daha ucuz qiymətə idxal edilə bilir. Vacib olan kifayət qədər məhsulun idxalına şəraitin yaradılması ilə yanaşı bazarın tələbindən artıq idxalın məhdudlaşdırılmasıdır ki, bununla yerli istehsal olunan məhsullar satıla bilsin. Bunun üçün beynəlxalq ticarətdə yol verilən metodlardan istifadə edilməlidir ki, onlar haqqında irəlidə məlumat verəcəyik.

***(ii) Ərzağa çıxış.*** Ərzağın mövcudluğu ilə bərabər ev təsərrüfatların həmin ərzağa çıxışı çox əhəmiyyətlidir. Ərzağa çıxışa ev təsərrüfatların vacib ərzaq məhsulların əldə edə bilmə qabiliyyəti, yəni maddi rifahı və ya həmin ərzağı özü istehsal edə bilməsi qabiliyyəti və seçim meyarları daxildir. Burada əhalinin zəruri ərzağı əldə etməsi üçün yetərli maddi vəsaitə malik olması xüsusi əhəmiyyət kəsb edir. Bununla əhalinin yoxsulluq səviyyəsi ərzaq təhlükəsizliyinin mühüm tərkib elementinə çevrilir. Deməli, ərzaq təhlükəsizliyin təmin edilməsi üçün əhalinin yoxsulluq səviyyəsi aşağı salınmalıdır. Yoxsulluq səviyyəsinin aşağı salınması ilə yanaşı ərzaq məhsulların istehlak qiyməti də çox əhəmiyyətlidir. Yəni, mövcud olan ərzaq məhsullarının dəyəri qalxdıqca əhalinin həmin ərzaq məhsulların əldə etmə imkanları məhdudlaşır və bu ərzaq təhlükəsizliyinə mənfi təsir edir. Bu isə həm ölkə daxilində istehsal olunan, həm də idxal olunan məhsulların qiymətinin əhalinin alıcılq qabiliyyətinə uyğun olmasını zəruri edir. Burada xarici ticarətin ərzaq təhlükəsizliyinə digər bir təsiri ortaya çıxır ki, bu da idxal olunan məhsulların qiyməti və ona təsir edən amillərdir. Dövlət elə tənzimləməlidir ki, idxal olunan ərzaq məhsullarının dəyəri bazar tələbinə uyğun olsun. Burada dövlətin idxalın tənzimlənməsində məhsulların qiymətinə təsir edən tarif və qeyri –tarif metodlarının düzgün müəyyənləşdirilməsi və

effektiv həyata keçirilməsi zəruridir. Digər mühüm məsələ yerli istehsal olunan məhsulların reallaşdırıla bilməsi üçün idxal olunan məhsulların qiymətinin yerli məhsullar səviyyəsində və ya ondan yuxarı olmasın təmin edilməsidir, bir haldaki, yerli məhsulların bazar dəyəri normal rəqabət şəraitində formalaşır. Bu haqda da irəlidə məlumat verəcəyik.

***(iii) Ərzaqdan istifadə.*** Ərzağın mövcud olduğu və hər bir vətəndaş tərəfindən əldə edildiyi bir şəraitdə digər bir mühüm məsələ həmin ərzağın təhlükəsiz, keyfiyyətli və insan orqanizmi üçün zəruri olan miqdarda olmasıdır. Burada ərzaq təhlükəsizliyinin digər bir mühüm tərkib elementi olan qida təhlükəsizliyi ortaya çıxır. Yetərli ərzaq təminatı qədər həmin ərzağın təhlükəsiz olması və insan orqanizmi üçün zəruri vitaminləri təmin etməsi əhəmiyyətlidir. Bu isə qida təhlükəsizliyinə daha çox diqqətin ayrılmasını zəruri edir ki, bu haqda irəlidə geniş məlumat verəcəyik.

***(iv) Davamlılq.*** Ərzaq təhlükəsizliyində mühüm elementlərdən biri də əhalinin davamlı və hər an etibarlı ərzaqla təminatıdır. Kənd təsərrüfatı məhsullarının əsas xüsusiyyəti onların yüksək riskli olması və bir çox faktorların təsirindən asılı olmasıdır. Yerli istehsal və idxal iqlim şəriatindən, quraqlıqdan, təbii fəlakətlərdən, xəstəliklərdən, zərərvericilərdən, fövqəladə hallardan və müharibələrdən dolayı kəskin azala bilər. Ərzaq təhlükəsizliyinin təmin edilməsində ən mühüm məqamlardan biri məhz bu cür hallara qarşı dövlət tərəfindən proflaktik tədbirlərin görülməsi və ölkədə yetərincə ərzaq ehtiyatlarının yaradılmasıdır. Burada xarci ticarətin ərzaq təhlükəsizliyinə digər bir təsiri ortaya çıxır.

FAO ölkələrin ərzaq təhlükəsizliyinə nail olunması baxımından qiymətləndirmə aparmaq üçün 5 səviyyə təklif edir. Həmin səviyyələr aşağıdakılardır[4]:

1) **Birinci səviyyə -** dövlətin ən vacib ərzaq növləri ilə daxili istehsalın daxili tələbi üstələdiyi, ölkənin özünü tam təmin etməsilə yanaşı ixrac imkanına malik olduğu vəziyyətdir.
2) **İkinci səviyyə** - ölkənin yalnız öz daxili tələbatını ödəyə biləcək səviyyədə ən vacib ərzaq məhsulları ilə özünü təmin etdiyi şəraitdir.

[4] http://www.cisstat.com/gsagr/CIS_Agristat_Metodology_Recommendation_of_system_indicators_of_food_security_CIS_countries.pdf

3) **Üçüncü səviyyə -** ölkəyə qida məhsullarının idxalı illik istehlakın 15-20 % həcmini keçmir və bu səviyyə "optimal idxal" səviyyəsi hesab edilir.
4) **Dördüncü səviyyə** - ölkədə istehlak edilən ərzağın təxminən 30%-i idxaldan asılıdır. Bu, ərzaq təhlükəsizliyi üçün təhdidin yarandığı səviyyə hesab olunur.
5) **Beşinci səviyyə -** dövlətin müəyyən məhsul və məhsullar üzrə digər ölkələrdən xroniki və kəskin idxal asılılığı olur. Ümumi istehlakın 30%-dən çoxu idxalla təmin olunduğu bu səviyyə riskli hədd hesab edilir. Bu vəziyyətlə üzləşən ölkələr daima ərzaq böhranları, yüksək inflyasiya, işsizlik və yoxsulluq, miqrasiya və demoqrafik azalma riski altında olurlar.

Amma ayrı-ayrı ölkələrdə bu məhsul növlərindən asılılıq səviyyəsinin yol verilən hədləri fərqli də müəyyən edilə bilir. Məsələn, Rusiyda maksimum asılılıq səviyyəsi taxıl və kartof üçün 5%, ət və ət məhsulları üçün 15%, bitki yağları və şəkər üçün 20% müəyyən edilib.
FAO ölkələrin ərzaq təhlükəsizliyin qiymətləndirmək üçün ərzaq təhlükəsizliyi göstərəciləri işləyib və illər üzrə hər bir ölkənin ərzaq təhlükəsizliyi səviyyəsini qiymətləndirir[5]. Bu indikatorlara orta dietik enerji təchizatı adekvatlığı, ərzaq istehsalının həcmi, dənli bitkilərdən, meyvə köklülər və kökyumurulardan əldə edilən enerji (kalori) təchizatının payı, yerli ərzaq məhsulları indeksi, dənli bitkilərin idxal asılılıq nisbəti, suvarma ilə təchiz edilmiş əkin sahələrinin payı, ümumi məhsul ixracına nisbətdə ərzaq məhsullarının idxal həcmi, yerli ərzaq qiymətinin qeyri stabilliyi, adam başına düşən ərzaq istehsalının dəyişkənliyi, ərzaq çatışmazlığının dərinliyi, yoxsulların ərzaq xərclərinin payı aiddir.
Təqdim edilən indikatorlardan da göründüyü kimi, FAO dənli bitkilərin ərzaq təhlükəsizliyində roluna əlahiddə yanaşır və bu məhsulların idxalından asılılıq səviyyəsini ölkənin ərzaq təhlükəsizliyini qiymətləndirmək üçün ayırca bir indikator kimi tövsiyyə edir. Həm FAO-nu yanaşmasını, həm də insanların qida rasionunda çörək və çörək məhsullarının rolunu nəzərə alaraq Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində vəziyyətin qiymətləndirilməsi məqsədilə pilot məhsul olaraq buğdanı seçməyi məqsədəuyğun hesab etdik.

[5] http://www.fao.org/economic/ess/ess-fs/ess-fadata/en/#.YDFEZ-gzZEb

## 2. Azərbaycanın buğda ilə özünü təminatı: mövcud vəziyyət və problemlər

Azərbaycanın buğda ilə özünü təminetmə səviyyəsinin qiymətləndirilməsi üçün rəsmi məlumat bazası Dövlət Statistika Komitəsi tərəfindən hazırlanan "ərzaq balansları" statistikasıdır[6].

**Azərbaycanın buğda ilə özünü təminetmə səviyyəsi**

***Cədvəl 1***

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| İstehsal, ton | 1 639 830 | 1 799 859 | 1 769 574 | 1 991 683 | 2 114 139 |
| İdxal, ton | 1 353 072 | 1 599 599 | 1 274 434 | 1 080 906 | 1 584 998 |
| İxrac, ton | - | - | - | - | 1 500 |
| **Cəmi istifadə, ton** | **3 849 706** | **4 274 706** | **4 069 639** | **3 902 413** | **4 406 068** |
| Buğda ilə özünü təminetmə səviyyəsi, daxili istehsalın cəmi istifadəyə nisbəti %-lə | 42,6 | 42,1 | 43,5 | 51,0 | 48,0 |

Statistik məlumatların araşdırılması göstərir ki, son 5 ildə Azərbaycanın buğda ilə özünü təminetmə səviyyəsi 50%-dən aşağı olub. 2015-2018-ci illərdə bu göstərici 42.6%-dən 51%-dək yüksəlsə də, 2019-cu ildə yenidən 48%-ə enib. FAO ekspertləri özünü təminetmə səviyyəsini hesablalamaq üçün daxili istehsalın daxili istehlaka nisbətini tapmağı tövsiyyə edir[7]. Lakin burda istehlak həcmi yalnız il ərzində ev təsərrüfatları və ya sənaye məqsədli istehlakla məhdudlaşmır, eyni zamanda buğda ehtiyatlarının formalaşdırılması üçün anbarlarda saxlanan həcmləri də nəzərə almaq lazımdır. FAO sığorta məqsədli (gözlənilməz hadisələr, təbii fəlakətlər və s. kimi dövlər üçün) buğda ehtiyatlarının ümumi istehlakın ən azı 20%-i səviyyəsində yaradılmasını tövsiyyə edir. Ehtiyatlar yalnız gözlənilməz hadisələrdən sığortalanmaq baxımından yox, həmçinin daxili bazarda qiymət sabitliyinin yaradılması baxımından da çox vacibdir. Bir qayda olaraq hökumətlər

[6] https://www.stat.gov.az/source/food_balances/
[7] http://www.cisstat.com/gsagr/CIS_Agristat_Metodology_Recommendation_of_system_indicators_of_food_security_CIS_countries.pdf

buğdanın qiymətinin artımı üçün risk gördükdə, sərəncamlarında olan ethiyatlar və digər alətlər vasitəsilə bazara intervensiya edirlər. Ən son Nazirlər kabinetinin 2021-ci ildə 16 fevral tarixli "Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə" qərarı ilə un istehsalı ilə məşğul olanlara satılan unun hər tonuna görə 35 manat subsidiya verilməsi[8] və həmçinin buğda ixracının hər tonuna qoyulan 200 dollarlıq gömrük rüsumu buna nümənədir[9]. Lakin bəzən əks proses də baş verir: məhsulu bolluğu olduqda, buğda istehsalçılarının maraqlarını qorumaq üçün zəmanətli müqavilə qiymətləri ilə anbar ehtiyatlarını artırmaqla bazarda buğdanın qiymətinin kəskin ucuzlaşmasının da qarşısı alınır.

Statistik məlumatlardan göründüyü kimi, Azərbaycanın buğda ilə özünü təminetmə səviyyəsi çox aşağıdır və buğdanın idxalından asılılıq səviyyəsinə görə ölkə FAO-nun müəyyən etdiyi 5-ci səviyyəyə uyğun olaraq kritik nöqtədə yer alıb. Həmin səviyyə ixtiyari ərzaq məhsulunda istehlakın 30%-dən artıq hissəsində idxaldan asılılıq olduqda baş verir. 2015-2019-cu illərdə Azərbaycanın buğda istehsalının həcmi 1.639-2.114 mln. ton intervalında dəyişib. Rəsmi məlumatlardan göründüyü kimi, 2015-2019-cu illərdə Azərbaycanın buğda idxalından asılılıq səviyyəsi 49-57,9% intervalında dəyişib. Təhlil aparılan dövrdə idxalın həcmi təxminən 1.4-1.6 mln. ton aralığında olub.

Xarici ticarət statistikanın[10] araşdırılaması göstərir ki, Azərbaycan buğda idxalına xeyli böyük məbləğdə valyuta vəsaitlər xərcləyir və bunu aşağıda təqdim edilən məlumatlardan aydın görmək mümkündür:

**Azərbaycanın buğda idxalına dair statistik göstəricilər**

***Cədvəl 2***

| İllər | Malın adı | Miqdarı | tatistik dəyər in ABŞ dolları) | mumi idxala nisbətən, %-lə |
|---|---|---|---|---|
| 2015 | Buğda, ton | 1353072.00 | 296831.00 | 3.48 |

[8] https://nk.gov.az/az/document/5153/
[9] https://nk.gov.az/az/document/5152/
[10] https://www.stat.gov.az/source/trade/

| | | | | |
|---|---|---|---|---|
| 2016 | Buğda, ton | 1599599.00 | 295017.56 | 3.22 |
| 2017 | Buğda, ton | 1 274 434.18 | 227 167.82 | 2.59 |
| 2018 | Buğda, ton | 1 080 905.51 | 205 967.01 | 1.8 |
| 2019 | Buğda, ton | 1 584 998.20 | 340 533.08 | 2.49 |
| 2020 | Buğda, ton | 1 365 100.13 | 296 905.18 | 2,77 |

Rəsmi statistik məlumatlardan göründüyü kimi, 2015-2020-ci illərdə Azərbaycan ümumilikdə 8.3 mln. ton buğda idxalına ümumilikdə 1.660 mlrd. dollar valyuta xərcləyib. Bu dövrdə ölkənin idxalına çəkilən xərclərin 1.8-3.5%-i buğda idxalına sərf edilib.

Buğda idxalının coğrafiyasına gəldikdə, son 5 il üzrə xarici ticarət statistikasının məlumatları göstərir ki, Azərbaycan buğdanı cəmi 2 ölkədən - Rusiya və Qazaxıstandan alır.

**Azərbaycanda buğda idxalının coğrafiyası**

***Cədvəl 3***

| Ölkələr | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Qazaxıstan | 7% | 6% | 5% | 25% | 17% |
| Rusiya | 91% | 93% | 94% | 75% | 83% |

Bu dövr ərzində Azərbaycan buğda idaxlında əsas yeri Rusiya tutub. Təhlil aparılan dövrdə Rusiyanın buğda idxalında xüsusi çəkisi 75-94% intervalında dəyişib. Xüsusilə də 2015-2017-ci ilərdə bu ölkə Azərbaycanın buğda təchizatında çox böyük üstünlüyə sahib olsa da, son 2 ildə Rusiyadan buğda asılılığında əhəmiyyətli azalma qeydə alınmışdır.

Yerli statisitkada ehtiyatların həcm göstərcisini müəyyən etmək üçün daxili istehlak və məcmu istifadə arasında fərqə diqqət yetirmək lazım gəlir.

**Azərbaycanda illik buğda ehtiyatlarının həcmi, ton**

*Cədvəl 4*

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Daxili istehlakın cəmi (itkilər nəzərə alınmaqla), ton | 2 974 458 | 3 249 075 | 2 997 283 | 3 195 482 | 3 542 058 |
| İlin sonuna qalıq (ehtiyat), ton | 875 248 | 1 025 631 | 829 824 | 706 931 | 864 010 |
| Cəmi istifadə (qalıq ehtiyatlar nəzərə alınmaqla), ton | 3 849 706 | 4 274 706 | 4 069 639 | 3 902 413 | 4 406 068 |
| Ehtiyatların daxili istehlaka nisbəti, % | 29,4 | 31,6 | 27,7 | 22,1 | 22,4 |

Rəsmi statistik məlumatların təhlili göstərir ki, 2015-2019-cu illərdə informasiya mənbələrində ilin sonuna qalıq kimi görünən, anbarlarda ehtiyat kimi saxlanan buğda həcmi 707 min tondan 1.025 mln. tona qədər dəyişib. Öz növbəsində, ehtiyatların məcmu daxili istehlaka nisbəti 22.1-31.6% arasında dəyişib ki, bu FAO ekspertlərinin təklif etdiyi 20%-lik minimumdan xeyli yüksək göstəricidir.

Buğdanın daxili istehlakının strukturuna gəldikdə, ərzaq məqsədli istehlak üstünlük təşkil edir.

**Diaqram 1**



**Diaqram 1. Azərbaycanda buğda istehlakının strukturu**

Buğda istehlakına dair rəsmi məlumatlardan göründüyü kimi, 2015-2019-cu illərdə buğda istehlakının təxminən 75-80%-i ərzaq məqsədli, 20-25%-i isə qeyri-ərzaq məqsədli olub. Ərzaq məqsədli dedikdə un, yarma, spirtli içkilər üçün emal məqsədli istifadə, habelə emal edilmədən ev təsərürfatlarında qida məqsədi üçün istifadə başa düşülür. Qeyri-ərzaq məqsədli isə kraxmal, qarışıq yem və istehsalı üçün emal məqsədli istifadə nəzərdə tutulur. Bundan əlavə, statistika toxum və emal edilmədən mal-qara yemi kimi istifadəni də ayrıca uçota alır.

**Azərbaycanda buğda istehlakının məqsədlər üzrə həcmi, ton**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|
| Toxum məqsədli, ton | 128 300 | 137 555 | 146 964 | 147 971 | 142 181 |
| Mal-qara və quş yemi üçün, ton | 467 756 | 529 389 | 503 993 | 483 283 | 545 657 |
| Ərzaq məqsədli, ton | 2 618 947 | 2 279 421 | 2 306 382 | 2 298 358 | 2 546 892 |
| Qeyri-ərzaq məqsədli, ton | 37 786 | 41 957 | 39 944 | 38 303 | 43 246 |
| **Cəmi istehlak (itkilər nəzərə alınmadan), ton** | **3253000** | **2988322** | **2997283** | **2962915** | **3277976** |

***Cədvəl 5***

Rəsmi məlumatlardan göründüyü kimi, 2015-2019-cu illərdə itkilər nəzərə alınmadan xalis buğda istehlakının həcmi təxminən 3-3.2 mln. ton, o cümlədən ərzaq məqsədli buğda istehlakının həcmi 2.3-2.6 mln. ton intervalında dəyişmişdir.

Ərzaq məqsədli buğda istehakı əsas etibarı ilə əhalinin çörək və çörək məmulatları ilə tələbatını ödəmək üçündür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 iyun tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş minimum istehlak səbətinin[11] tərkibinə əsasən, ölkədə əhalinin un ekvivalentində çörək və çörək məhsullarına tələbatının minimum isteklak norması aşağıdakı kimi müəyyən edilib:

[11] http://www.e-qanun.az/framework/10061

- **Əmək qabiliyyətli əhali üçün – 136,8 kq;**
- **Pensiyaçılar üçün – 107,9 kq;**
- **0-15 yaşlı əhali üçün 100.5 kq.**

Ərzaq balansı statistikasından görünür ki, əhalinin una tələbatının ödənməsi üçün emal olunan olunan buğda həcmi 2 mln. tondan bir qədər çoxdur.

## 3. Azərbaycanda buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi üçün siyasət tədbirləri və onların nəticləri

Azərbaycanda rəsmi hökumət siyasətində taxılçılığın, o cümlədən buğda istehsalının təşviq edilməsi qəbul edilmiş müxtəlif normativ-hüquqi aktlarda, dövlət proqramlarında və hökumət strategiyalarında əksini tapan rəsmi təşəbbüslərdə, müxtəlif mexanizmlərdə özünü göstərir. Azərbaycanda taxılçılıq sektorunun fəaliyyəti müxtəlif normativ-hüquqi aktlarla tənzimlənir. “Taxıl haqqında” Qanun[12] qəbul edilib. Bu sənəd taxıl istehsalı, tədarükü və bazarının təşkili, taxılın və taxıl emalı məhsullarının keyfiyyətinin idarə edilməsi sahəsində hüquqi münasibətləri müəyyən edir. Qanun dövlət üçün bir sıra vəzifələr müəyyənləşdirib. Taxıl bazarının konyunkturunu öyrənmək, taxıl balansını hazırlamaq, təsdiq etmək, proqnozlar vermək, taxıl bazarının iqtisadi üsullarla tənzimlənməsini həyata keçirmək, taxıl istehsalının artırılması üçün məqsədli taxıl proqramları hazırlamaq, müvafiq investisiya, qiymət, kredit və vergi siyasətini həyata keçirmək, dövlət taxıl fondu yaratmaq, onun formalaşmasını, saxlanmasını və istifadəsini təşkil etmək, həmçinin taxılçılıq sahəsində müvafiq normativ hüquqi aktlar qəbul etmək və beynəlxalq əməkdaşlığı inkişaf etdirmək əsas vəzifələr sırasındadır.

Qanuna əsasən, dövlət taxıl bazarının tənzimlənməsinə öhdəlik daşıyır. Bunun üçün qiymət tarazlığının təmin olunması məqsədi ilə taxıl bazarına əmtəə müdaxiləsi, taxıl bazarının monitorinqi, proqnozlaşdırılması və taxılçılıq fəaliyyəti subyektlərinin məlumatlandırılması,taxıl bazarında haqsız rəqabətlə mübarizə və yerli istehsalçılara dövlət himayəsi, taxıl məhsullarının minimum keyfiyyətinə dair tələblərin normalaşdırılması və sertifikatlaşdırılmasının təşkili kimi iqtisadi üsullardan istifadə edilir.

Eyni zamanda, “Taxıl haqqında” Qanun taxıl idxalına qarşı tələbləri də müəyyən edir. İdxal üçün taxıla qanunvericiliyin tələblərinə uyğun qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı alınmalıdır. Lakin qüvvədə olan normativ sənədlərdə nəzərdə tutulmuş müvafiq sertifikatı olmayan taxıl məhsulları yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada sərgilərdə nümayiş, tədqiqat və sınaq məqsədi ilə ölkə ərazisinə idxal oluna bilər. Öz növbəsində, genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilərək istehsal olunmuş taxıl və onun məhsullarının ölkəyə idxal edilməsinə yol verilmir.

[12] http://www.e-qanun.az/framework/631

Bundan əlavə, taxılçılığın inkişafı ilə bağlı 2016-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə[13] də bəzi məsələlər yer alıb. Sənəddə yeni elevatorlara və taxıl anbarlarına ehtiyacın qiymətləndirilməsi, infrastrukturun təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması nəzərdə tutulur. Xəritədə qeyd edilir ki, ərzaq təyinatlı yumşaq buğda və digər dənli paxlalıların istehsalının həcminin artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi çərçivəsində əsas diqqət taxılçılığın daha səmərəli olduğu rayonların müəyyənləşdirilməsinə, istehsalın maksimum intensivləşdirilməsi və məhsuldarlığın yüksəldilməsi hesabına mövcud əkin sahələrini genişləndirmədən istehsalın həcminin artırılmasına yönəldilməlidir. Bundan başqa, bazar infrastrukturunun inkişafı tədbirləri çərçivəsində əsas taxılçılıq bölgələrində kiçik və orta həcmli taxıl anbarlarının yaradılması əsas hədəflərdən biri olacaq.

Nəhayət, 2004-2019-cu ildə qəbul edilmiş 4 müxtəlif regional inkişaf proqramlarında da taxılçılığın inkişaf etdirilməsi, ölkənin buğda ilə təminatında yerli istehsalın payının artırılması məsələləri də yer alıb. Məsələn, ən son qəbul olunan "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda[14] taxılçılıq üzrə ixtisaslaşmış aqrqoparkların və kiçik ölçülü taxıl emalı müəssisələrinin yaradılması, taxıl anbarlarının tikintisi, nümunəvi taxıl təsərrüfatlarının yaradılması, taxılçılıq üzrə inkişaf planlarının hazırlanması, zəruri avadanlıqlarla təmin edilmiş müasir taxılçılıq laboratoriyasının qurulması və s. kimi tədbirlər nəzərdə tutulub.

Ölkədə taxıl ehtiyatlarının formalaşdırılması və taxıl bazarının tənzimlənməsi üçün ehtiyat fondlarının təşkili üçün də normativ-hüquqi baza yaradılıb. Məsələn, "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"na[15] əsasən, Fövqəladə Hallar Nazirliyinin sərəncamında olan Fond hər il Nazirlər Kabinetinin müəyyən etdiyi həcmdə taxıl Fonduna anbarlarına tədarük edir. "Dövlət Taxıl Fonduna tədarük edilən taxılın həcminin müəyyən edilməsi haqqında" NK- nin 18 sentyabr 2012-ci il tarixli 206 saylı qərarına[16] əsasən, Dövlət Taxıl Fonduna taxılın tədarükü 750 (yeddi yüz əlli) min ton həcmində müəyyən edilib.

"Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nda tədarük edilməli taxıla qarşı keyfiyyət tələbləri və standartları müəyyən edilib. Qaydaya görə, Fonddan taxılın istifadəsi

[13] http://e-qanun.az/framework/34254
[14] http://www.e-qanun.az/framework/41320
[15] http://www.e-qanun.az/framework/18044
[16] http://www.e-qanun.az/framework/24297

fövqəladə hallarda istehlakçıların bu məhsullara olan tələbatını ödəmək, beynəlxalq öhdəlikləri yerinə yetirmək və lazım gəldikdə, daxili bazarda taxıl məhsullarının kəskin qiymət dəyişmələrinin qarşısını almaq məqsədi ilə həyata keçirilir. Fonddan taxılın kəskin qiymət artımının qarşısının almaq zərurəti yarandıqda Fonddan sitifadə edilməlidir.

Dövlət Taxıl Fondunun fəaliyyətinin təmin edilməsi ilə əlaqədar Fonda taxılın tədarükü, saxlanması, istifadəsi və yeniləşdirilməsi dövlət büdcəsində bu məqsədlə nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

Qaydalar Fond üçün olunan taxılın tədarükünə qarşı normalarla yanaşı, ayrıca olaraq tədarük olunmuş taxılın saxlanmasına da qarşı tələblər müəyyən edir.

Sahənin inkişafının təmin edilməsi yalnız müvafiq normativ-hüquqi bazanın yaradılması, sahə proqramlarının və ya strategiyaların qəbulu ilə məhdudlaşmayıb. Dövlət subsidiya mexanizmi vasitəsilə də buğda istehsalının təşviqinə səy göstərib. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin göstərilməsi– subsidiyaların verilməsinə “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli Sərəncamı[17] ilə başlanılmışdır. Sərəncama əsasən, buğda əkinləri üçün digər əkinlər üçün nəzərdə tutulan subsidiyanın 2 misli qədər vəsait ödənilirdi. Məsələn, 2015-2019-cu illərdə buğda istehsalçıları hər hektar əkin sahəsi üçün 90 manat (digər əkinlər 50 manat) subsidiya alıblar. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 avqust tarixli 283 nömrəli qərarı[18] ilə buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsinə başlanılmışdır.

2020-ci ildən isə yeni subsidiya mexanizminin tətbiqinə baş başlanmışdır. Ölkə prezidentinin 27 iyun 2019-cu il tarixli 759 saylı fərmanı ilə təsdiqlənən “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na[19] görə, artıq hər hər hektar bütün kənd təsərrüfatı əkinləri, o cümlədən buğda istehsalı üçün 200 manatdan az olmayaraq subsidiya almaq imkanı qazandı. Ötən 13 il ərzində (yeni subsidiya mexanizminə keçilənədək) dövlət büdcəsindən hər il buğda və çəltik istehsalına təxminən 60-80 milyon manat ətrafında subsidiya dəstəyi verilmişdir. Məsələn, Kənd Təsərrüfatı Nazirliyinin ən son məlumatına görə, 2019-cu ildə bu subsidiyanın məbləği 83.2 mln. manat təşkil etmişdir[20].

---

[17] http://e-qanun.az/framework/12851
[18] http://e-qanun.az/framework/12851
[19] http://e-qanun.az/framework/42750
[20] https://www.agro.gov.az/uploads/documents/pages/2019.pdf

Bununla yanaşı, buğda istehsalçılarına kənd təsərrüfatı təyinatlı texnikaların alışı zamanı 40%-lik dövlət dəstəyi almaq, 7 və 12 %-lik güzəştli kreditlər almaq imkanı da yaradılmışdır. Rəsmi statistik məlumatların analizi göstərir ki, texnikaların güzəştli şərtlərlə satışının və lizinqinin maliyyələşdirilməsi taxıl istehsalçıları üçün texniki parkın xeyli genişlənməsilə müşayiət olunub

**Taxıl istehsalı ilə əlaqədar əsas növ kənd təsərrüfatı texnikasının parkı, ilin axırına**

***Diaqram 2***




Rəsmi məlumatlardan göründüyü kimi, təkcə 2015-2019-cu ilərdə taxıl toxumu səpən texnikanın sayı 10 dəfəyə yaxın, taxılyığan kombaynların sayı 6 dəfə, ümumi traktorların sayı isə 3 dəfəyə yaxın artmışdır. Şübhəsiz ki, buğdanın zamanında əkilməsi, becərmə dövründə zəruri aqrotexniki qulluğu təmin ediıməsi və biçin vaxtı itkisiz tədarük edilməsi baxımından tələbata uyğun say və keyfiyyətdə texniki parkın yaradılması istehsalın artımı üçün ən zəruri şərlərdən biridir.

Bundan əlavə, hökumət son 7-8 ildə regionlarda aqroparkların yaradılmasını dəstəkləyir və həmin parklar çərçivəsində yeni sahələri taxıl əkinləri üçün dövriyyəyə cəlb edir. Məsələn, 2018-ci ildə yaradılmış Qax aqroparkı 5.2 min ton taxıl sahəsi becərir[21].

Bütün bu hüquqi tənzimləmə və təşviq tədbirlərinin ölkənin buğda idxalından asılılığına nə dərəcədə həlledici təsir göstərdiyini analiz etmək çox vacibdir. Əvvəlki bölmədə təqdim olunan statistik məlumatlardan göründüyü kimi, 2015-2019-cu illərdə ölkənin idxaldan asılılığında

[21] https://www.stat.gov.az/source/construction/az/1.xls

müəyyən bir azalma müşahidə edilib (57%-dən 49%-dək). Lakin hələ də ölkə öz taxıl ehtiyaclarının yarısını kənardan ödəməyə məcburdur.

Təşviq və tənzimləmə tədbirlərinin davam etdiyi dövrdə buğda istehsalının dinamikası çox fərqli şəkildə dəyişmişdir və aşağıdakı qarafikdən bunu aydın görmək mümkündür.

**2007-2019-cu illərdə buğda istehsalı, min ton**[22]

***Diaqram 3***




Qrafikdən gördündüyü kimi, buğda istehsalçılarının subsidiyalaşdırlmasına başlandığı 2007-ci ildən başlayaraq sonrakı 2 ildə (2008-2009-cu illər) buğda istehsalında 50%-dək sürətli artım baş verdiyi halda, 2010-cu ildə istehsal yenidən 2007-ci ilin səviyyəinə enmişdir. 2011-2014-cü illərdə də yenidən 40%-lik artım qeydə alınsa da, 2015-ci ildə yenidən 25%-lik azalma baş vermişdir. 2016-cı ildən başlayaraq isə davamlı artım qeydə alınmışdır. Bu müddətdə buğda istehsalının həcmi 23% artaraq təxminən 1.7 mln. tondan 2.2 mln. tona yaxınlaşmışdır. Ümumilikdə isə 2007-2019-cu illərdə buğda istehsalı təxminən 840 min ton və ya 62% artsa da, buğda idxalından asılılıqda əhəmiyyətli azalmanın müşahidə edilməməsinin səbəbləri ciddi dəyərləndirmə tələb edir. Doğrudur, bunun bir səbəbi buğda istehsalının artımı ilə yanaşı əhalinin də artımını nəzərə almaq lazımdır. Rəsmi statistikaya görə, 2007-2019-cu illərdə ölkə əhalisinin

22 https://www.stat.gov.az/source/agriculture/az/2.112.xls

sayı 1.3 mln. nəfər və ya 15% artıb[23]. Yəni demoqrafik genişlənmə nəzərə alınmasa, buğda istehsalının xalis artımı 40%-dən bir qədər çoxdur. Belə ki, əgər 2007-ci ildə adambaşına buğda istehsalı 154 kq idisə, 2019-cu ildə 220 kq və ya həmin dövrə nisbətən 43% yüksəkdir. Digər bir mühüm səbəb isə buğdanın qeyri-ərzaq məqsədli istifadəsinə tələbatın daha sürətli artımı olmuşdur. Məsələn, buğdadan istifadə balansına[24] görə, 2007-2019-cu illərdə emal edilmədən yem kimi istifadə olunan buğda istehlakı 158 min ton və ya 41%, emal edilərək yarma kimi istifadə edilən buğda istehlakı təxminən 200 min ton və ya 10%, qeyri-ərzaq məqsədli digər emal məhsullarının istehsalı üçün 30 min ton və ya 3.5 dəfə artmışdır. Bunlardan, əlavə itkilərin də həcmi 100 min ton və ya 40%-dək artmışdır.

Göründüyü kimi, tələbatın artım sürəti daxili buğda istehsalının artım sürətinə yaxın olduğundan bütün təşviq tədbirlərinə baxmayaraq, ölkənin buğda idxalının asılılığında əhəmiyyətli nəticələrə nail olmaq da mümkün olmayıb.

Statistik məlumatların analizi göstərir ki, Azərbaycan buğda istehsalını əsasən ekstensiv inkişaf yolu, yəni sahələrin genişlənməsi hesabına nail olub.

[23] https://www.stat.gov.az/source/demoqraphy/az/001_4-6.xls
[24] https://www.stat.gov.az/source/food_balances/az/001_3.xls

**Buğda və kənd təsərrüfatı əkinlərinin sahəsi, hektar**

**Diaqram 4**




Diaqramdan göründüyü kimi, 2007-2019-cu illərdə ümumi kənd təsərrüfatı əkinlərinin sahəsi təxminən 400 min hektar və ya 30%, buğda əkinləri isə 182 min hektar yaxud 33% genişlənib. Halbuki həmin dövrdə buğdanın məhsuldarlığı hər hektar üçün 27.3 sentnerdən 32.4 sentnerə qalıxb ki, bu cəmi 18.5% artım deməkdir.

**Diaqram 5**




Göründüyü kimi, 12 il ərzində buğdanın məhsuldarlığının artımı əkin sahələrinin genişlənmə tempindən 2 dəfə geri qalıb. Öz növbəsində, təhlil aparılan dövrdə bütün kənd təsərrüfatı əkinlərində buğda əkinlərinin

xüsusi çəkisi 37%-dən 39%-ə yüksəlib. Azərbaycanda buğdanın hazırkı məhsuldarlıq səviyyəsi aqrar istehsalda yüksək nəticələr əldə etmiş ölkələrə nisbətən təxminən 2 dəfə aşağıdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) statistik məlumat bazasında[25] açıqlanan informasiyalara görə, 2019-cu ildə Avropa Birliyi üzrə buğdanın məhsuldarlığı hər hektar üçün 58 sentner təşkil edib. Öz növbəsində, bu göstərici Fransa və Almaniya kimi ölkələr üzrə 70 sentnerdən az deyil.

[25] https://stats.oecd.org/Index.aspx?DataSetCode=HIGH_AGLINK_2017

## Tədqiqatın əsas nəticələri və tövsiyyələr

Araşdırma göstərir ki, ərzaq təhküsəzliyi ölkələr üçün yalnız iqtisadi məsələ deyil. Bu problem dövlətlərdə siyasi sabitliyin təmin edilməsində də həlledici rola malikdir. Xüsusilə də insanların qida rasionunda önəmli yer tutan çörək və un məmumlatları üçün xammal, heyvandarlığıq məhsullarının istehsalı üçün yem bazası rolunu oynayan buğda istehsalının tələbata uyğun səviyyədə tədarükü çox mühümdür.

Qeyd alanları nəzərə alaraq Azərbaycanda buğda istehsalının mövcud vəziyyətini və idxaldan asılılıq səviyyəsini qiymətləndirən bu tədqiqatın əsas nəticələri kimi aşağıdakıları qeyd etmək mümkündür:

- **Ölkədə son 10 ildən artıq dövr ərzində buğda istehsalının stimullaşdırılması ilə bir sıra mexanizmlər (subsidiya, texnika və güzəştli kredit dəstəyi) yaradılıb;**
- **Buğda istehsalının təşkili və bu sahədə dövlət tənzimlənməsi üçün normativ-hüquqi baza formalaşdırılıb;**
- **Ötən 10 ildən artıq dövr ərzində buğda istehsalı 60%-dək, buğda əkinlərinin sahəsi 35%-dək, adambaşına buğda istehsalı 40%-dək artmışdır;**
- **İstehsalın həcminin artımına baxmayaraq Azərbaycanın buğda idxalından asılılıq səviyyəsi kifayət qədər yüksək olaraq (50% ətrafında) qalır;**
- **Buğdanın məhsuldarlığında artım müşahidə edilsə də, məshuldarlığın artım tempi əkin sahələrinin artım tempindən orta hesabla 2 dəfə geri qalıb.**

Tədqiqatın üzə çıxardığı bir sıra problemləri və nəticələri nəzərə alaraq Azərbaycanın buğda asılılığının azaldılması üçün aşağıdakı addımların atılması zəruridir:

- **Məhsuldarlığa birbaşa təsir edən keyfiyyətli və yerli təbii şəraitə uyğunlaşdırılmış sertifikatlı toxumdan istifadə genişləndirilməli, buğda əkinlərində sertifikatsız və aşağı reproduksiyalı toxumlardan istifadənin mümkün qədər məhdudlaşdırılması;**
- **Fermerlərin buğda əkinlərinə həvəsləndirilməsi üçün dünya bazar qiymətlərinə uyğun qiymətlə əsasında onlarla zəmanətli fyuçers müqavilələrin bağlanması;**

- **Taxıl əkini üzrə ixtisaslaşmış kiçik fermerlərin kooperativlərdə birləşməsini və daha iri əkin sahələrinin yaradılmasını təşviq etməklə miqyası effektinin yüksəldilməsi hesabına buğda təsərrüfatlarının rentabelliyinin yüksəldilməsi;**
- **Fermerlərin müasir əkin və suvarma texnologiyaları hesabına buğda əkinlərini aparamaq üçün onlara zəruri dəstəyin göstərilməsi**
- **Aqrar sahədə akademik araşdırmaların keyfiyyətinin yüksəldilməsi, bu sahədə inkişaf və araşdırma xərclərinin həcminin artırılması;**
- **Dövlət Aqrar İnkişaf Mərkəzlərinin fermerlərin maariflənirilməsi sahəsində fəallığının və məsləhət xidmətinin keyfiyyətinin yüksəldilməsi;**
- **Kənd təsərrüfatı üzrə start-up layihələrin keçirilməsi;**
- **Buğdanın anbarda saxlanması zamanı risklərdən qorunması üçün effektiv sığorta mexanizminin yaradılması;**
- 

# Ədəbiyyat siyahısı


1. http://www.fao.org/3/MR173RU/mr173ru.pdf
2. E.H. Əkbərov - Ərzaq təhlükəsizliyinin milli təhlükəsizlik sistemində yeri - https://atm.gov.az/pdf/magazine/3.pdf
3. http://www.fao.org/fileadmin/templates/faoitaly/documents/pdf/pdf_Food_Security_Cocept_Note.pdf
4. http://www.cisstat.com/gsagr/CIS_Agristat_Metodology_Recommendation_of_system_indicators_of_food_security_CIS_countries.pdf
5. http://www.fao.org/economic/ess/ess-fs/ess-fadata/en/#.YDFEZ-gzZEb
6. https://www.stat.gov.az/source/food_balances/
7. http://www.cisstat.com/gsagr/CIS_Agristat_Metodology_Recommendation_of_system_indicators_of_food_security_CIS_countries.pdf
8. https://nk.gov.az/az/document/5153/
9. https://nk.gov.az/az/document/5152/
10. https://www.stat.gov.az/source/trade/
11. http://www.e-qanun.az/framework/10061
12. http://www.e-qanun.az/framework/631
13. http://e-qanun.az/framework/34254
14. http://www.e-qanun.az/framework/41320
15. http://www.e-qanun.az/framework/18044
16. http://www.e-qanun.az/framework/24297
17. http://e-qanun.az/framework/12851
18. http://e-qanun.az/framework/42750
19. https://www.agro.gov.az/uploads/documents/pages/2019.pdf
20. https://www.stat.gov.az/source/construction/az/1.xls
21. https://www.stat.gov.az/source/agriculture/az/2.112.xls
22. https://www.stat.gov.az/source/demoqraphy/az/001_4-6.xls
23. https://www.stat.gov.az/source/food_balances/az/001_3.xls
24. https://stats.oecd.org/Index.aspx?DataSetCode=HIGH_AGLINK_2017

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub.

IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə

məlumatları: Tel:

+99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: idi.azerbaijan@gmail.com

Facebook:

www.facebook.com/DTI.IDI